AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *Azərbaycan Respublikası Mərkəzi Bankın İdarə Heyətinin Qərarı* |
| Qəbul edildiyi tarix | *30.07.2014* |
| Qeydiyyat nömrəsi | *18/2* |
| Adı | *"Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası"nda dəyişiklik edilməsi barədə* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *12.08.2014* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *090.060.010* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *23201407300182* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *11.08.2014* |

Respublikada inflyasiyanın aşağı səviyyəsi, məcmu tələbin və pul kütləsinin mövcud artım templəri nəzərə alınaraq, habelə iqtisadiyyatın şaxələnməsinə, real sektorda investisiya fəallığının daha da artırılmasına şərait yaratmaq və bununla da iqtisadi artıma dəstək vermək məqsədilə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 30 iyul 2014-cü il tarixli 18/1 nömrəli qərarına əsasən bankların bütün depozitləri üzrə məcburi ehtiyat norması 3%-dən 2%-ə endirilmişdir. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti "Azərbaycan Respublikasının

Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.0.17-ci və 32.1-ci maddələrinə əsasən

**Q Ə R A R A   A L I R:**

1. "Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası"nda dəyişiklik edilsin (əlavə olunur).

2. Hüquq departamentinə (R.Məlikova) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**Sədr**
**Elman Rüstəmov**

**"Təsdiq edilmişdir"**
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 18/2
30 iyul 2014-cü il

**"Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası"nda dəyişiklik**

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2012-ci il 10 iyul tarixli 16/1 nömrəli Qərarı ilə təsdiq olunmuş "Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası"nın 2.2-ci bəndində "3 (üç)" sözləri "2 (iki)" sözləri ilə əvəz edilsin.